

# BAYAT



№ 44 (625)



ƏBÜLFƏZ ÜLVİ

## ZƏNN ETDİM

İstədim oxşayam vətəni, yurdu,
Bu axşam ilhamı çevirdim meyə.
Sözlər cilvələnib növbəyə durdu,
Şeiri onlarla bəzəyim deyə.

Bütün imtiyazı verdim qələmə,
Gördüm ürəyimlə o da səsləşir.
Sən demə vətənə deyilən kəlmə,
Vətənin özü tək müqəddəsləşir.

O mənə həmdəmdir, mən ona həmdəm,
Həmdəmlik olmasa ovqat saz olmaz.
Vətənlə qışda da gülər əqidəm,
Vətənsiz yazda da, yazım yaz olmaz.

Qanım vətənindir, qorxmuram qandan,
Ölsəm ruhum onun keşiyin çəkər.
Demirəm keçərəm yolunda candan,
Vətəni sevənlər deməmiş keçər.

Demirəm gözümdür, sevirəm amma,
Sevirəm sevgimin izi də olsun.
Bəxtəvər gününü görməkdən yana,
Gərəkdir insanın gözü də olsun.

Bu işdə bir sirri həkk etdim başa,
Vətənsiz insana heç nə tən olmur.
Vətənin vətəni ürək olmasa,
Tək dildə deməklə o vətən olmur.

Fəqət belə oldu bu günün xeyri,
Zənn etdim bir zəfər marşı çalındı.
Elə bir həvəslə yazdım şeiri,
Şeirin özündən vətən alındı.

## BİRİ YOXDU, BİRİ VAR...

Haqq olubdur bu dünyanın göz dağı,
Bu dünyanın dünya boyda sirri var.
İnsan oğlu elə sevir torpağı,
Altında da, üstündə də yeri var.

Qovğalarla paralanan qovuşmaz,
Lovğalıqla nisgil, qada sovuşmaz,
Dünya da öz dünyasına qovuşmaz,
Nə qədər ki, ölücanlı diri var.

Yer üstündə elə gəzir talanlar,
İlanlara zəhər verir yalanlar,
Qoy döyməsin sinəsinə yamanlar,
Yamanın da yaman adlı çəri var.

Dayanmadan etdiyini edir şər,
Zənn etməsin xoşbəxtliyə gedir şər,
Bir nüansı anlamayır dəvələr,
Başa düşmür, dəvədən də iri var.

Nadan "qağa"m nadanlıqdan etsə ar,
Sevgi versən səhralıq da verər bar,
Dünya onda uğur tapar, var olar,
Deyilməsə biri yoxdu, biri var.

## BU BİR PAYIZ FƏSLİ

Göylərin çırağı, sanki sönübdür,
Az qala göy üzü qara pas tutur.
Sanki günəş adlı əri ölübdür,
Buludlar ağlayıb ona yas tutur.

Hərdən buludları azacıq didib,
Şimşək hirs içində elə millənir.
Elə bil azacıq hərdən yer edib,
Göy üzü özünə işıq dilənir.

Ağaclar dünənki günün unudub,
Nə olub bilməyir son anınadək.
İldırım qılıncı əlində tutub,
Susur hökmdarın fərmanınadək.

Sərin yel başlayır işə nəhayət,
Özün gah göstərir, gah da gizləyir.
Qorxudan saralıb, sanki təbiət,
İşdən azad olma əmrin gözləyir.

Susur yavaş-yavaş çobanlarda ney,
Bulaqlar can atır yenə qaynaya.
Görür ağlamağa hazırlaşır göy,
Yer üzü az qalır segah oynaya.

Məftillər adi bir mehdən deyinir,
Gündüz kölgəsiylə gecə cütləşir.
İnsanlar payızda qalın geyinir,
Dərələr, təpələr, dağlar lütləşir.

Bu bir payız fəsli, sevilir hətta,
Heç kəs bu fəsildən gərək çaşmasın.
Payız olur olsun, təki həyatda,
İnsanın sevgisi payızlaşmasın.

## MƏN SEVGİ DƏNİZİ YARADIRAM Kİ...

Nə olar, mənə bir dəniz bəxş edin,
Suyu dolu olsun, ləbələb olsun.
Eşqimi dənizə elə nəqş edim,
Eşq dəbdən düşməsin, daim dəb olsun.

Nə olar, mənə bir dəniz bəxş edin,
Qoymayın ürəyə ucuz dərd yığım.
Nə olar, mənə bir dəniz bəxş edin,
Suyunu boşaldım, məhəbbət yığım.

Bəxş edin, qalmasın ürəyimdə xal,
Qorxmayın xəyalım duman, çən olmaz.
Qəribə gəlməsin heç kəsə bu hal,
Sudan dəniz olar, sevgidən olmaz?

Onunçün dənizi istəyirəm mən,
Boğum sularında kini, nifrəti.
Nifrət əl götürsün nifrətliyindən,
Kin də dönüb olsun sevgi külfəti.

Necə düşünürsüz düşünün, təki,
Xoşbəxtlik şah olsun, kəniz olmasın.
Mən sevgi dənizi yaradıram ki,
Daha göz yaşından dəniz olmasın.

## YAZDIM Kİ...

Dedin: - bir şeir yaz mənə bu səhər,
Çalış mayasını sevgiylə yoğur.
Salıb zarafata dedim: - a "kafər",
Mənim hər şeirim sevgidən doğur.

Coşdu, damarımda qaynadı qanım,
Elə bil pətəkdən süzdü şeiri.
Bilmirəm qələmə neylədin, canım,
Yoxlama yazı tək yazdı şeiri.

Kağıza muncuq tək düzdüm sözləri,
Nisgilin sapına düzülməyəsən.
Elə bil gül idi üzdüm sözləri,
Təki sən güləsən, üzülməyəsən.

Sanma qələm, kağız, ilham naşıdı,
Adınla şeirə yaraşıq düşüb.
Bilmədim sən hansı, muncuq hansıdır,
Səninlə muncuqlar qarışıq düşüb.

Yazdım ki, xahişin düşməsin yerə,
Amma ürəyimdə bir təlatüm var.
Qorxuram bir-iki muncuğa görə,
Səni şeirimdən oğurlayalar.

## ÖLƏN SƏN DEYİLSƏN...

Mən ki, hisslərimi əhdimə əkdim,
Nədəndir taleyim hisləyir görən,
Pislərlə oturub durmayıb bəxtim,
Bəs kimdən öyrənib pisliyi görən.

Sevdamız üstündən əsdi küləklər,
Sanırdım bu eşqlə durulmuş idim.
Altı təzək çıxdı, üstü bəzəklər,
Gör hələ mən kimə vurulmuş idim.

Yol üstə eyləyən nigaran məni,
Sanmasın yolunu düzünə gəlir.
İşə bax özümdən çıxaran məni,
Özümdən çıxarıb, özünə gəlir.

Hicrana yönəltdi eşqi şivənin,
Odun yox, külündə hələ xıs gəzir.
Səni ağlı ilə seçib sevənin,
Ağlını çalmısan, ağılsız gəzir.

Günahın az deyil, yığın-yığındır,
Sanma etdiklərin arşına gəlmir.
Ölən sən deyilsən, insanlığındır,
Onunçün heç kimsə yasına gəlmir.

## GÖRƏNDƏ

Dünya, nə qoymusan yenə planda?
Yanıram gözləri yaşda görəndə.
Arada ədalət, hörmət olanda,
Sevgi bəsləyirəm daş da görəndə.

Odu saxlamırsa təndirin badı,
Heç zaman yaxşıya çəkilməz adı,
Qalmaz zərrə qədər həyatın dadı,
Həyatın dadını aşda görəndə.

Kimini dağlayır "insaf"ın hökmü,
Kimini bağlayır "insafı" hökmü,
Hönkürüb, ağlayır insafın hökmü,
Hökmü əqli çaşmış, çaşda görəndə.

Tərsliyə aparır dərsləri tərsin,
Əkməyən istəyir dərdikcə, dərsin,
Az qalır əllilər əlini kəssin,
Əl tutan əlləri, boşda görəndə.

Zaman namərd izi qaşıya bilmir,
Ər çiyin, şər yükü daşıya bilmir,
Ülvi ayaqda da yaşaya bilmir,
Başı yox başları, başda görəndə.

## MƏN ELƏ ÖLÜYƏM...

Mən elə ölüyəm, dünya dağılsa,
Saçımdan dənlənsə dən, dirilmərəm.
Doğurdan ölünü dirildən olsa,
Yenə də olmaram şən, dirilmərəm.

O qədər ahlara tuş olub bağrım,
Artıq məhv edibdir dözümü ağrım,
Başımda olubdur öləndə ağlım,
Ölərəm, mən ağlı kəm dirilmərəm.

Nə qədər can verir yurdum oyunda,
Şəhid anaları əli qoyunda,
Kreslo sevənlər başda, boyunda,
Bir yerin edibsə min, dirilmərəm.

Mən elə ölüyəm ruhum özümdə,
Özümü oxlayan oxum, özümdə,
Silinə bilməsə elin gözündə,
Qarabağ adında nəm, dirilmərəm.

Mövcudsa qanıma "həna" deyənlər,
Mövcudsa qarğaya sona deyənlər,
Vətənin adına tənə deyənlər,
Olmasa vətənə tən, dirilmərəm.

Əsir torpaqlarım artıq çəlikdə,
Yoxdur daha ordan salam əlik də,
Məni basdırıblar biganəlikdə,
O ölüb getməsə, mən dirilmərəm.

## DOĞURDAN AĞLADAR

Deyirlər yalandır sənin göz yaşın,
Bu yalan etmirmi narahat səni?
Belə çimdirirsən yoxsa göz, qaşı,
Göz, qaşın göstərsin bir babat səni.

Yalan göz yaşları gətirməz xeyir,
Bunu mən demirəm, bütün el deyir,
Göz yaşı töküncə salavat çevir,
Qorusun hər yaşdan salavat səni.

Deyilmir, yaş tökən hər gözə əhsən,
Onu biçəcəksən bil ki, nə əksən,
Kimisə bu yolla əyirsənsə, sən,
Haqq əyər eyləyər, iki qat səni.

Şahmatda adətkar udar, mat olmaz,
Hər suça, günaha bəraət olmaz,
Göz yaşı tökməklə zarafat olmaz,
Alçaldar bu sayaq zarafat səni.

Səhv vardır ölçüsü, arşına gəlməz,
Zənn etmə dərd, bəla başına gəlməz,
Yalan ağlayarsan, xoşuna gəlməz,
Doğurdan ağladar bu həyat səni.